# HONOR X9d smartfonunun ön panelinin mexaniki zədələnməsi halında genişləndirilmiş servis xidməti göstərilməsi qaydaları

### Əhatə dairəsi

Genişləndirilmiş servis xidməti yalnız Azərbaycan Respublikasının ərazisində **2025-ci il 7 noyabr – 31 dekabr tarixləri** arasında alınmış və aktivləşdirilmiş **HONOR X9d** model smartfonlara aiddir.

### Xidmətin mahiyyəti

Alış tarixindən etibarən **ilk 6 ay ərzində**, ön paneldə (sensor şüşə və ya displey) mexaniki zədələnmə baş verdiyi halda, istifadəçi cihazı aldığı satış nöqtəsinə və ya rəsmi icazəli HONOR servis mərkəzinə müraciət edə bilər:

Xidmət üçün **zəmanət talonu** və **alışı təsdiqləyən sənədin (kassa qəbzi, mal qəbzi və s.)** təqdim edilməsi vacibdir. Bu halda **cihaz tam pulsuz təmir olunur** – həm ehtiyat hissəsinin, həm də onun dəyişdirilməsi işinin dəyəri ödənilmir.

### Zədələnmənin xarakteri

Ön panelin mexaniki zədələnməsi dedikdə, cihazın sensor şüşə və ya displeyinin təsadüfi zədələnməsi və nəticədə smartfonun normal istifadəsinin mümkünsüzləşməsi nəzərdə tutulur.

Xidmət aşağıdakı hallara **şamil edilmir:**

- yalnız "kosmetik" xarakterli zədələr (məsələn, ekran və ya yan səthlərdəki cızıqlar, kiçik çatlar və s.);
- cihazın istehsalçı tərəfindən səlahiyyət verilməmiş şəxslər tərəfindən sökülməsi, təmiri və ya dəyişdirilməsi nəticəsində yaranmış nasazlıqlar.

### İstehlakçının hüquqları

İstehlakçı bu xidmət çərçivəsində **pulsuz təmir əvəzinə** cihazın dəyərinin ödənilməsini, yeni cihazla əvəz olunmasını və ya satış qiymətinin azaldılmasını tələb edə bilməz. Genişləndirilmiş servis xidməti **yalnız pulsuz təmir** imkanı təqdim edir və hər hansı **pul kompensasiyası** nəzərdə tutulmur.

### Təmir müddəti

Zədələnmiş hissənin dəyişdirilmə müddəti servis mərkəzində ehtiyat hissələrinin mövcudluğundan və logistika imkanlarından asılı olaraq fərqlənə bilər.

### Şərtlərin yerinə yetirilməsi

Xidmətin göstərilməsi üçün yuxarıda sadalanan bütün şərtlər tam şəkildə yerinə yetirilməlidir. Servis mərkəzi cihazı qəbul etdikdən sonra şərtlərdən hər hansı birinə uyğunluq olmadığı aşkarlanarsa, **pulsuz təmir xidmətinin göstərilməsindən imtina oluna bilər.**

## Əlaqə

- Baku Texniki Servis Mərkəzi, Xətai – Süleyman Vəzirov 11B
- Sumqayıt Texniki Servis Mərkəzi – 36-cı məhəllə, ev 3/24 Sülh küçəsi
- Gəncə Texniki Servis Mərkəzi – Heydər Əliyev küçəsi 103

Ətraflı məlumat üçün *0171 qaynar xətti ilə əlaqə saxlaya bilərsiniz.